https://doi.org/10.59849/3006-1342.2025.3.133
UOT 94 (479.24)

*Aytən Mircəfər qızı Əliskəndərova*
*AMEA Gəncə Bölməsi*
*Kiçik elmi işçi*
*E- mail: aytenceferova2021@gmail.com*
*Orcid: https://orcid.org/0009-0002-8184-1671*

# GƏNCƏDƏ MİSGƏRLİK SƏNƏTİNİN TARİXİ İNKİŞAFI VƏ SOSİAL-İQTİSADİ TƏSİRLƏRİ

*Məqalə Azərbaycan xalq tətbiqi sənətinin qədim və zəngin istiqamətlərindən biri olan misgərlik sənətinin tarixini, inkişaf mərhələlərini və sosial-iqtisadi rolunu ətraflı şəkildə təqdim edir. Arxeoloji tədqiqatlar göstərir ki, Azərbaycanın Gəncə-Qazax bölgəsində metallurgiya və misgərlik ənənələri minilliklər əvvələ gedib çıxır. Gəncə şəhərində formalaşmış misgərlik məktəbi yüksək bədii zövq, simvolik baxışlar və texnoloji mükəmməlliyi ilə fərqlənmiş, həm yerli, həm də regional bazarlarda məşhur olmuşdur. Məqalədə, həmçinin, misgərlik sənətinin şəhərin iqtisadi və sosial həyatındakı rolu, ustad-şagird ənənəsi və müasir dövrdə qorunması məsələləri təhlil edilir. Gəncə Qala Qapıları kompleksi və etnoqrafik muzey misgərlik sənətinin tarixdən müasir dövrə qədər yaşamasının əyani nümunələridir.*

*Açar sözlər:* Gəncə, misgərlik, metallurgiya, ornament, sənətkar

Azərbaycan xalq tətbiqi sənətinin qədim və zəngin istiqamətlərindən biri olan misgərlik əsrlər boyu həm məişət, həm də bədii-estetik tələbatın ödənilməsində mühüm yer tutmuşdur. Bu qədim sənət növü mis və onun ərintilərinin emalı əsasında formalaşaraq texniki ustalıqla estetik zövqü birləşdirerek yüksək peşəkarlıq nümunələri yaratmışdır. Arxeoloji tədqiqatlar göstərir ki, Azərbaycan ərazisində metallurgiya və misgərlik ənənələrinin tarixi minilliklərə dayanır. Hər bölgə öz ornamental üslubu, forma və texniki üslubları ilə fərqlənmişdir.

Eneolit dövrünə aid maddi mədəniyyət nümunələri misin Azərbaycanın qədim əhalisinin ilk istifadə etdiyi metallardan biri olduğunu sübut edir. Araşdırmalar göstərir ki, hələ Eneolit dövründə Cənubi Qafqaz ərazisi qədim insan yaşayış məskəni olmuş və burada 150-dən artıq yaşayış yerləri arxeoloji cəhətdən öyrənilmişdir. Cənubdan Kiçik Qafqaz dağları, şimaldan isə Kür çayı ilə əhatələnmiş Gəncə-Qazax düzənliyi də bu tədqiqatlar nəticəsində aşkar edilən ərazilərdəndir [3, s. 95].

Azərbaycanın qədim elm və sənətkarlıq mərkəzlərindən biri olan Gəncədə, eləcə də onun ətraf ərazilərində misgərliyin qədim zamanlardan təşəkkül tapması, şəhər yaxınlığında (Daşkəsən, Gədəbəy) mis mədənlərinin olması ilə bağlı idi. Gəncə tarixi İpək yolunun əsas qovşaqlarından biri kimi, əsrlər boyu ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi olmuşdur. Burada fəaliyyət göstərən misgərlər yüksək keyfiyyətli və zəngin ornamental kompozisiyalarla bəzədilmiş, məmulatları ilə tanınmış, yerli bazarlarla yanaşı uzaq bölgələrə də məhsul göndərmişdir. Misgərlik ənənələrinin ən parlaq nümunələri formalaşmışdır. Gəncədə misgərlik məktəbi simvolik məzmunu, formalarının harmoniyası və texnoloji mükəmməlliyi ilə Azərbaycan misgərlik sənətinin inkişaf xəritəsində özünəməxsus yer tutmuşdur. Gəncədə misgərlik sənəti şəhərin qədim məhəllə mədəniyyəti ilə sıx bağlı olmuşdur. Tarixi mənbələrə görə, şəhərdə "Misgərlər məhəlləsi" adlanan ərazi Vaqif küçəsinin III dalanında yerləşir [1, s. 291].

Gəncəbasar bölgəsində aparılmış arxeoloji tədqiqatlar göstərir ki, buradakı metallurgiya ənənələrinin tarixi çox qədimdir və ilk misgərlik nümunələri Eneolit və Tunc dövrünə aiddir.

Eyni dövrə aid Xankəndi və ətraf ərazilərdə tədqiq olunmuş kurqanlarda aparılan qazıntılar da bu qənaəti təsdiqləyir. Kurqanlardan aşkar edilən metal, daş və sümükdən hazırlanmış əmək alətləri, eləcə də bəzək əşyaları göstərir ki, həmin dövrdə metallurgiya və metalişləmə texnikası artıq formalaşmışdı. Qəbirlərdə ölülərlə birlikdə müxtəlif məişət əşyalarının, o cümlədən metal məmulatlarının basdırılması, misin həm təsərrüfat, həm də simvolik əhəmiyyət daşıdığını sübut edir. Bu faktlar Gəncə ərazisində sonrakı yüzilliklərdə formalaşan misgərlik ənənələrinin ilkin əsaslarını izah etməyə imkan verir [3, s. 95]. Kurqanlardan və yaşayış yerlərindən əldə olunmuş materiallar, xüsusilə metal məmulatları, bu ərazilərdə mis və digər metallardan geniş istifadə edildiyini təsdiqləyir. Qəbirlərin və yaşayış məskənlərinin qazıntılarında tapılan mis qablarla yanaşı, metal bəzək əşyaları əmək alətləri və məişət əşyalarının mövcudluğu Gəncənin qədim sakinlərinin metallurgiya sahəsində inkişaf etmiş bacarıqlara malik olduğunu göstərir [5, s. 178].

Qədim şaxtaların qalıqları, mədənlərdən çıxarılan filiz nümunələri və onların ətrafında aşkarlanan metallurgiya izləri sübut edir ki, yerli əhali mis hasilatı ilə məşğul olmuş, bu da sonrakı mərhələlərdə misgərlik sənətinin formalaşmasına zəmin yaratmışdır. Əldə olunan faktlar həm də göstərir ki, Gəncə şəhərinin tarixi inkişafı təsadüfi olmamış, onun iqtisadi-mədəni yüksəlişi təbii sərvətlərin, xüsusilə mis yataqlarının istismarı ilə sıx bağlı olmuşdur. Beləliklə, Gəncə-Qazax bölgəsindəki qədim mis yataqlarının mövcudluğu misgərlik ənənələrinin yaranmasında və inkişafında əsas amillərdən biri kimi çıxış etmişdir [2, s. 37].

Tarixi və arxeoloji məlumatlardan məlum olur ki, Gəncədə misgərlik Dəmir dövründən etibarən inkişaf etməyə başlamış və orta əsrlərdə XI-XV əsrlərdə, xüsusilə də XVIII əsrdə yüksək səviyyəyə çatmış, əsas sənətkarlıq sahələrindən birinə çevrilmişdir. Belə ki, orta əsr səyyahları öz əsərlərində Azərbaycanın Gəncə, o cümlədən Təbriz, Şəki, Bakı kimi böyük şəhərlərində xüsusi misgərlik küçələrinin olduğunu və bu küçələrdə yerləşən emalatxanlarda misdən bəzəkli orijinal formalı qab-qacaq düzəldilməsini qeyd edirlər [6, s. 112].

Orta əsrlərdən başlayaraq Gəncə Qafqazın aparıcı ticarət mərkəzlərindən biri kimi formalaşmış, burada fəaliyyət göstərən sənətkar məhəllələri şəhərin iqtisadi strukturunun ayrılmaz hissəsinə çevrilmişdir. Misgərlər əsasən karvansarayların, bazarların və sənətkar küçələrinin ətrafında cəmləşmiş, öz məhsullarını həm yerli bazarda, həm də qonşu vilayətlərə ixrac etmişlər.

Qeyd etmək lazımdır ki, misgərlik sənəti Gəncədə təkcə bədii zövqün göstəricisi deyil, həm də şəhərin sosial və iqtisadi həyatının ayrılmaz tərkib hissəsi idi. Misgərlik sənətinin Gəncədə inkişafı yalnız bədii yaradıcılıq çərçivəsində qalmamış həm də şəhərin sosial-iqtisadi strukturuna dərin təsir göstərmişdir. Əsrlər boyu bu sənət sahəsi həm gəlir mənbəyi, həm də ustad şagird ənənəsi əsasında peşəkar sənətkarların yetişdirilməsi üçün mühüm platforma olmuşdur. Nəticədə, Gəncə təkcə maddi irs nümunələri ilə deyil, həm də sənətkarlıq mühitinin formalaşdırdığı mənəvi mədəni dəyərlərlə seçilən sənət mərkəzinə çevrilmişdir. Tarixi irsin bu şəkildə qorunması, eyni zamanda Gəncənin sənətkarlıq ənənələrinin yenidən canlanmasına da təkan vermişdir.

Misgərlik sənətinin iqtisadi mahiyyəti təkcə məişət əşyalarının istehsalı ilə məhdudlaşmırdı. Bu sahə həmçinin Gəncə şəhərinin maliyyə dövriyyəsinə, sənətkar ailərinin sosial təminatına və sənət ənənələrinin davamlılığına təsir göstərirdi. Ustalar adətən şagirdlər yetişdirərək emalatxana ənənəsini qoruyur, bu da sənətin nəsildən-nəslə ötürülməsinə şərait yaradırdı. Gəncədə misgərlik emalatxanaları kiçik istehsalat ocaqları olmaqla yanaşı, eyni zamanda peşəkar tədris və yaradıcılıq mühiti funksiyasını da daşıyırdı. Misgərlik sənətin iqtisadi baxımdan inkişaf etməsində Gəncənin əlverişli coğrafi mövqeyi xüsusi rol oynamışdır. Şəhər həm Qafqazın daxili bölgələri, həm də Yaxın Şərq ticarət yolları ilə sıx əlaqədə idi. Nəticədə, Gəncə ustalarının hazırladığı mis qablar, bəzək əşyaları və bədii metal nümunələri Şamaxı, Təbriz, Naxçıvan və Tiflis bazarlarında böyük tələbat qazanmışdır. Bu da

misgərlərin maddi rifahını artırmaqla yanaşı, Gəncənin sənət mərkəzi kimi nüfuzunu möhkəmləndirmişdir.

Sosial mühit baxımından isə misgərlik sənəti Gəncə əhalisinin gündəlik həyatına, məişətinə və mədəni dəyərlərinə birbaşa təsir göstərmişdir. Mis qabların təkcə pratik əhəmiyyəti deyil, həm də status göstəricisi kimi qəbul edilməsi sənətin sosial nüfuzunu artırmışdır. Məsələn, toy və mərasimdə gümüş bəzəkli mis qabların istifadəsi ailənin zənginliyinin  və zövqünün göstəricisi hesab olunurdu [8, s.89].

Qədim Gəncənin sənət irsinin mühüm qolunu təşkil edən misgərlik şəhərdə əsrlər boyunca öz dəyərini qoruyub saxlamış, zaman keçdikcə həm texniki, həm də estetik baxımdan təkmilləşmişdir. Misgərlik sənətinin izləri bu gün də Gəncənin memarlıq abidələrində və mədəni komplekslərində öz əksini tapmaqdadır. Bu baxımdan Gəncə Qala Qapıları kompleksi xüsusi əhəmiyyət kəsb edir. Kompleksin mərkəzində yerləşən möhtəşəm dəmir darvazalar XII əsrdə gəncəli usta İbrahim Osman oğlu tərəfindən düzəldilmiş qədim Gəncə qapılarının eskizləri əsasında hazırlanmışdır. Həmin qapılarda metal üzərində aparılmış zərif naxış və ornamentlər Gəncə misgərlik məktəbinin yüksək bədii səviyyəsini və texniki ustalığını nümayiş etdirir. Bu memarlıq və sənət nümunəsi yalnız tarixi keçmişin simvolu deyil, həm də misgərlik sənətinin müasir dövrdə yenidən dirçəldilməsinin göstəricisidir. 2014-cü ilin yanvar ayında Cənab Prezident İlham Əliyevin iştirakı ilə açılan Gəncə Qala Qapıları kompleksi, dövlətin mədəni irsin və xalq sənətkarlığının qorunmasına verdiyi dərin önəmin parlaq təzahürüdür. Dövlət başçısının Gəncəyə həmin səfəri zamanı tarixi abidələrin bərpası, qədim sənət ənənələrinin yaşadılması və milli kimliyin qorunması istiqamətində verilən göstərişlər, misgərlik kimi qədim sənət növlərinin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qala kompleksində fəaliyyət göstərən etnoqrafik muzeydə nümayiş etdirilən misgərlik məmulatları, Gəncə ustalarının sənətkarlıq irsinin bu gün də yaşadığını sübut edir. Bu nümunələr təkcə qədim texnikaların müasir dövrdə qorunmasını deyil, həm də Gəncənin əsrlərdən bəri formalaşan sənətkarlıq ənənələrinin mədəni yaddaşda yaşamasını təmin edir [9].

Bu gün Gəncədə misgərlik sənəti əsasən fərdi ustalar vasitəsilə yaşadılır. Şəhərdə bu sahə üzrə xüsusi ixtisas və ya tədris proqramı mövcud olmasa da, yerli sənətkarlar muzey, sərgi və mədəni tədbirlər çərçivəsində qədim misgərlik ənənələrini nümayiş etdirirlər. Gəncə Qala Qapıları kompleksi və etnoqrafik muzeylərdə qorunan mis məmulatları bu sənətin tarixi dəyərlərinin müasir dövrdə yaşadığını sübut edir. Son illərdə mədəni irsin qorunması və xalq sənətkarlığının təbliği istiqamətində həyata keçirilən layihələr misgərlik ənənələrinin unudulmaması baxımından mühüm əhəmiyyət daşıyır.

*Nəticə*

Aparılmış tədqiqatlar göstərir ki, Gəncə misgərlik sənəti Azərbaycanın xalq tətbiqi sənətləri içərisində ən qədim və Gəncə tarix boyu sənətkarlığın və xalq yaradıcılığının əsas mərkəzlərindən biri kimi tanınmışdır. inkişaf etmiş sahələrdən biridir. Bölgənin təbii xammal ehtiyatları, əlverişli coğrafi mövqeyi və mədəni mühit bu sənətin formalaşmasına və davamlı inkişafına şərait yaratmışdır. Orta əsrlər dövründə Gəncə misgərlik məktəbi həm texnoloji, həm də bədii baxımdan özünəməxsus xüsusiyyətləri ilə seçilmiş, şəhərin iqtisadi və sosial həyatında mühüm rol oynamışdır. Bu gün Gəncə Qala Qapıları kompleksi və etnoqrafik muzeylər bu sənətin tarixi davamlılığının simvoluna çevrilmişdir.

ƏDƏBİYYAT

1. Allahverdiyev N. "Gəncə məhəllələri ", Bakı, 2020, 531 s.
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə . I cild. Bakı, " Şərq-Qərb" 2007, 544 s.

3. Azərbaycan tarixi. Yeddi cilddə. I cild, Bakı “ Elm” 2007. 520 s. + 40 səh. illüstrasiya
4. Azərbaycan tarixi. Yeddi cilddə. III cild, Bakı “ Elm” 2007. 597 s. +56 s. illüstrasiya
5. Baxşəliyev V. Azərbaycan arxeologiyasi. Bakı 2007, 237 s.
6. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, “ Şərq-Qərb ” 2007, 160 s. +112 səh. İllustrasiya
7. Rüstəmova L. Gəncə-Qazax bölgəsinin erkən metallurgiya və metalişləmə sənətinin xammal mənbələri. Azərbaycan arxeologiyası jurnalı, Bakı , 2021, s. 32-38.
8. Qasımova S.Ə., Həsənova N.İ. Gəncə misgərliyinin tarixi inkişaf mərhələləri. \”Gəncə incəsənəti” mövzusunda konfrans materialları\ Gəncə, 2025, 235 s.
9. https://ganja-ih.gov.az/az/news/122.html

УДК 94 (479.24)

*Айтен Мирджафар кызы Алискандерова*
*Гянджинское отделение НАНА*

## ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ МЕДЕПЛАВИЛЬНОГО ПРОИЗВОДСТВА В ГЯНДЖЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, медное дело, металлургия, орнамент, ремесленник

В статье подробно изложены история, этапы развития и социально-экономическая роль медного дела, одного из древнейших и богатейших направлений азербайджанского народного прикладного искусства. Археологические исследования показывают, что традиции металлургии и медного дела в Гянджинско-Газахском регионе Азербайджана уходят в глубь тысячелетий. Школа медного дела, сформированная в городе Гянджа, отличалась высоким художественным вкусом, символическим содержанием и технологическим совершенством и была известна как на местном, так на местных и региональных рынках. В статье также анализируется роль медного дела в экономической и общественной жизни города, традиция мастера-ученика и ее сохранение в современную эпоху. Комплекс ворот Гянджинского замка и этнографический музей являются яркими примерами существования медного дела от истории до современности.

UDC 94 (479.24)

*Aytan Mirjafar Aliskandarova*
*Ganja Branch ANAS*

## HISTORICAL DEVELOPMENT OF COPPERWORKING ART IN GANJAD AND SOCIAL-ECONOMIC IMPACTS

*SUMMARY*

*Keywords:* Ganja, coppersmithing, metallurgy, ornament, craftsman

The article provides a detailed overview of the history, stages of development, and socio-economic role of coppersmithing - one of the ancient and rich branches of Azerbaijani folk applied art. Archaeological research shows that the traditions of metallurgy and coppersmithing in the Ganja–Gazakh region of Azerbaijan date back thousands of years. The

coppersmithing school formed in the city of Ganja stood out for its high artistic taste, symbolic perspectives, and technological perfection, becoming renowned in both local and regional markets. The article also analyzes the role of coppersmithing in the economic and social life of the city, the master-apprentice tradition, and issues related to its preservation in modern times. The Ganja Fortress Gates complex and the Ethnographic Museum serve as vivid examples of how the art of coppersmithing has survived from ancient times to the present day.

***Daxil oldu: 12.11.2025-ci il***